FATİMƏXANIM ƏHMƏDZADƏ
Baki Avrasiya Universiteti
Həsən Əliyev 135 A
fatyahm@mail.ru

KRİSTAFOR MARLONUN "DOKTOR FAUSTUN FACIƏSI" ƏSƏRİNDƏ İBLİS OBRAZININ TƏZAHÜRÜ

Xülasə.

Mədəniyyətdə olduğu kimi ədəbiyyatda da İblis obrazı istənilən şərin personifikasiyası, xeyirin yaradıcısının antipodu kimi çıxış edir. O ədəbiyyatda konflikt formalaşdıran obrazlardandır. Mifoloji təfəkkürün ifadə forması kimi ortaya çıxmış İblis obrazı istər Şərq, istərsə də Qərb ədəbiyyatında qədim dövrlərdən etibarən müraciət olunan bədii simvolik fiqurlardan biri kimi çıxış etmişdir. İblis obrazına müraciət olunmasının tarixi Şərq ədəbiyyatında daha qədim dövrə təsadüf edilsə də, Avropa ədəbiyyatında bu hal xüsusən intibah dövrü ədəbiyyatında daha kəskin şəkil alır. Bunun əsas səbəblərindən biri də, intibah ədəbiyyatının antik ədəbiyyata göstərmiş olduğu maraqdan irəli gəlirdi. İntibah dövrünün yadda qalan ən görkəmli ingilis dramaturgiyasının nümayəndələrindən biri Kristafor Marlo olmuşdur. Marlonun əsərləri içərisində diqqət çəkən ən maraqlı faciələrindən biri "Doktor Faustun faciəsi" pyesidir. Onun bütün yaradıcılığı boyu müraciət etdiyi mövzulardan fərqli olaraq bu əsər daha çox fəlsəfi, psixoloji xarakteri ilə diqqət çəkir. Bununla yanaşı, məqalədə bəzi alleqorik obrazlara da diqqət yetirilir. Doktor Faustun bilik əldə etməsi üçün ruhunu İblisə satması motivi Avropa ədəbiyyatı üçün təsadüfü bir hal deyil və insanın biliyə can atmanın ruhunu İblisə satması ilə nəticələnməsi motivi bir çox əsərlərdə öz əksini tapmışdır. Doktor Faust da məhz dünyanın bütün sirlərinə agah olmaq və bununla dünyaya hökm etmək istədiyi üçün şeytanın tələsinə düşür və cənnətdən qovulur. "Doktor Faustun faciəsi" əsərində diqqət çəkən məqamlardan biri də, cəhənnəmin təsviri ilə bağlıdır. Məqalədə A. Dante, C.Bayron, C.Milton, İ. Höte kimi ədiblərin yaradıcılıqlarına, həmçinin Tövratdaki mətnlərə nəzər salınır. İblis mifoloji təfəkkürdən gələn simvolik obrazdır və yazılı ədəbiyyata təzahür etmişdir. Marlonun Faustu insan-İblis parallelin yeni ifadə formasıdır və bu obraz humanizm ideyaları əsasında yaradılmışdır.

Açar sözlər: İblis, şər, Faust, Mefistofel, Lütsifer

Mədəniyyətdə olduğu kimi ədəbiyyatda da İblis obrazı istənilən şərin personifikasiyası, xeyirin yaradıcısının antipodu kimi çıxış edir. Və bu da əsərdə konflikt formalaşdırır. Bunun nəticəsində isə əsərdə hərəkət müşahidə edilir. Dekadans dövründə İblis obrazı xüsusi mahiyyət kəsb edir. Bu obraz məişətin məğzini təşkil edərək mədəniyyətin dərkində inteqrasiya olunan simvola çevrilir. Mifoloji təfəkkürün ifadə forması kimi ortaya çıxmış İblis obrazı istər Şərq, istərsə də Qərb ədəbiyyatında qədim dövrlərdən etibarən müraciət olunan bədii simvolik fiqurlardan biri kimi çıxış etmişdir. Xeyir və Şər münasibətlərinin ziddiyətli çarpışmasının insan mənəviyyatındakı yerini və rolunu göstərmək üçün bu günə qədər bir çox məşhur yazıçılar bu mövzuda ciddi bədii ədəbiyyat nümunələri işləyib hazırlamışlar. Xüsusən də, cəmiyyətdə baş verən ictimai ədalətsizliklər, tiran hökmdarlar, müharibələr bu mövzulara hər zaman müraciət etməyə şərait yaratmışdır. Bununla yanaşı, insanın fərdi xüsusiyyətlərinin mənəvi yüksəlişi, yaxud tam əksinə hərisliyə meylliliyi ifadə etməyə olan maraq bu obraza dönə-dönə müraciət edilməsinə səbəb olmuşdur. İblis obrazına müraciət olunmasının tarixi Şərq ədəbiyyatında daha qədim dövrə təsadüf edilsə də, Avropa ədəbiyyatında bu hal xüsusən intibah dövrü ədəbiyyatında daha kəskin şəkil alır. Bunun əsas səbəblərindən biri də, intibah ədəbiyyatının antik ədəbiyyata göstərmiş olduğu maraqdan irəli gəlirdi. Bu isə kanonik obraz və motivlərə yazıçıların müraciət etməyinin vacibliyini ortaya qoyurdu. İntibah ədəbiyyatının əsas prinsiplərindən biri də humanist epoxasında "insan dünyasının açılması", onun elmə olan hərisliyi idi. Bir sözlə, insan şəxsiyyəti intibah ədəbiyyatını

maraqlandıran vacib məsələlərdən idi. Bu mənada İblis obrazı da intibah ədəbiyyatı üçün təsadüfi hadisə deyild.i [6, 141]. Öncə İtaliyada başlanan bu proses sonra digər Avropa ölkələrinə, Almaniya, Fransa, İspaniya eləcə də İngilis ədəbi mühitinə də daxil oldu.

İngilis ədəbiyyatının ilkin rüşeymlərini ilk öncə Cefri Çoser yaradıcılığında müşahidə edirik. XV əsrin sonlarında Oksford universitetində gənc alimlərin dərnəyi yaradılır. Bu gənc filoloqlar elmlə mənəviyyatı birləşdirməyə çalışırdılar. Bu dərnəyin görkəmli nümayəndələri olan Vilyam Qrosin, Tomas Linker, Con Kolet milli mənəvi dəyərlərin inkişafı üçün çalışırdılar [6, 334]. Həmin dövrdə ingilis humanist dramı da inkişaf etməkdə idi. İtaliya və Fransa intibah teatrı əsas etibarilə antik drama dayansa da, İngilis dramı isə bir qədər fərqlənirdi. Bunun səbəbi isə dramaturgiyanın formalaşması islahat dövrünə təsadüf etdiyi üçün ingilis drammaturgiyası daha çox dini-ictimai əsaslara görə formalaşırdı. Humanistlər isə yeni dramın inkişafına səy göstərirdilər və nəticədə milli teatr ənənləri klassik tendensiyalara üstün gəlməyə başladı. Bunun nəticəsi olaraq da dramaturji axında ingilis intibah teatrı dünya dramaturgiyasında mühüm yer əldə etmiş oldu. [6, 353]

Marlonun əsərləri içərisində diqqət çəkən ən maraqlı faciələrindən biri "Doktor Faustun faciəsi" pyesidir. Onun bütün yaradıcılığı boyu müraciət etdiyi mövzulardan fərqli olaraq bu əsər daha çox fəlsəfi, psixoloji xarakteri ilə diqqət çəkir. 1589-cu ilə müəllif tərəfindən qələmə alınan bu əsər xalq yaradıcılıq nümunəsi olan və İohan Şpis tərəfindən Frankfurt –am-Maynda 1957-ci ildə nəşr olunan əsərin motivləri üzərində yazılıb. Marlo bu əsərin ingilis tərcüməsinə əsasən pyesi qələmə almışdır.

Almaniyanın Rods şəhərində dünyaya göz açan Faust yeniyetmə ikən elm dalınca Vittenberqə yola düşür. O ilahiyyat elminin bütün incəliklərinə sahib çıxdıqdan sonra təkəbbürdən qanadlanır. Alim adını qazanan Faust bir müddət sonra təkəbbürünə yenilərək qəlbini şər qüvvələrə təslim edir. O Aristotelin "məntiq düşünmək üçündür" fikri ilə razılaşmır. İnsani keyfiyyətlərdən daha yüksəyə qalxmağı düşünür və həkim olmağa qərar verir. Faust insanları ölümdən xilas etmək, hətta ölüləri qəbirdən çıxarmaq kimi iddiaya düşür. Bunu yalnız təbib olmaqla mümkün olmadığını anlayan Faust başqa yollar axtarır.O, İncildə "günahın cavölümdür" fikrini oxuyur və düşünür ki, onsuz da hər kəs günahkardır və hər kəs ölümə məhkumdur. Amma bilik bundan daha üstündür. "Che sera, sera!" [8, 2] Fausta görə, İlahi kitablar heç bir işə yaramayacaq, cadügərlərin sirli kitablarına müraciət etmək lazımdır. O, bütün dünyanın ona həsəd aparmasına can atır və bütün dünyanı öz hakimiyyəti altına almaq istəyir.

Mətndə deyilir:

Fərasətli cadugər Allaha taydır
Faust ağlını işlət.
Allah qüdrətində ola bilmən üçün. [8, 3]

Bu zaman otağa xeyir və şər mələkləri daxil olur. Xeyirxah mələk ona bu fikrindən daşınmasını tövsiyə edir. Ona bu kitabı bağlamasını söyləyir. Şər mələyi isə Fausta bu sənəti öyrənməsini, yerdə Yupiter kimi olmağı məsləhət görür. Faust isə böyük var-dövlət əldə etmək arzusundadır. O, Almaniyanı günəşə qərq etmək, Hindistanın qızılına sahib çıxmaq fikrindədir. O zaman ona bu işdə yardım edəcək Valdes və Korneliy köməyə gəlir. Onlar Fausta cadugərliyin sirlərini öyrətməyə çalışırlar. Faust onların arxasınca getməyə razılaşır. Faust müqəddəs kitabları da özü ilə götürərək cadugərliyi qəbul etmək üçün bir qalaya gəlir. Kahinlər ona müqəddəs kitabları tərsinə oxumağı və lənəti qəbul etməyi əmr edirlər. Bu vaxt Mefistofel peyda olur. Mefistofelin eybəcər halını bəyənməyən Faust ona cildini dəyişməsini əmr edir. Lənət ritualı bitdikdən sonra Mefistofel yenidən peyda olur. Faustdan nə istədiyini soruşur. Faust Mefistofelə ona xidmət etməsini söyləyir. Faust Mesfistofeldən onun üçün Lütsiferə belə bir rizasını çatdırmasını xahiş edir:

"Get təcili Lütsiferə bəyan et,
Faust öz kafir düşüncəsiylə,
Özünü əbədi məhvə məhkum etdi.
De ki, qəlbini ona satmağa hazırdır
Yalnız 24 il tələb edir.
Əvəzində istəyirəm ki,
Bütün bu illəri sən mənə xidmət edəsən" [8, 10]

Mefistofel Lütsiferlə görüşdükdən sonra ona belə bir xəbər gətirir:

"Sən təntənəli surətdə and içməlisən,
ruhunu şeytana satdığını qanınla kağıza yazmalısan.
Lütsiferə bu zəmanəti verməsən,
mən cəhənnəmə geri dönürəm" [8, 12].

Merfistofel Lütsiferin göstərişlərini yerinə yetirir.

Bütün bu hadisələrədn sonra Faust Mefistofeldən kitab eldə edir. Bu kitabın vasitəsilə o, dünyanın bütün sirlərinə bələd olur. Müqəddəs kitabları yandırmaqla Allahdan imtina edən Faust daha sonra kilsəyə gəlir, gözəgörünməzlik donuna girən Faust Roma papasını təhqir edir. 24 il Faust magik gücü ilə dünyaya hökmranlıq edir. 24 ilin tamamında isə o, iblis tərəfindən cəhənnəmə sürüklənir. Əsərdə biz iki mələk, yaxşılıq və şər mələyi ilə qarşılaşırıq. Xeyirxah mələk əsər boyu bir beçə dəfə Faustu məqsədindən geri döndərməyə çalışır. Şər mələyi isə Faustu verdiyi qərara əməl etməyə təhrik edir. Bununla yanaşı, əsərdə bəzi alleqorik obrazlarla da qarşılaşırıq. Bunlardan birincisi təkəbbür, ikincisi həsəd, üçüncüsü qəzəb, dürdüncüsü paxıllıq, beşincisi acgözlükdür. Tənbəllik və şəhvət də bu obrazlar işində yer almaqdadır. Bu obrazlar əsərdə günahkarlar kimi təqdim olunur. Faustun qonaqları olan bu simvolik obrazları Lütsifer qəzəblənərək cəhənnəmə qovur. Doktor Faustun bilik əldə etməsi üçün ruhunu İblisə satması motivi Avropa ədəbiyyatı üçün təsadüfü bir hal deyil və insanın biliyə can atmanın ruhunu İblisə satması ilə nəticələnməsi motivi bir çox əsərlərdə öz əksini tapmışdır. Bunun kökündə isə çox güman ki, Tövratda öz əksini tapmış, kanonik mətnlərdə olan Həvva və Adəmin İblisə uyaraq cənnətdə yetişən bilik meyvəsini dadması motivi ilə bağlıdır. Bu isə zamanla bədii ədəbiyyatda bu və ya digər şəkildə təzahür etməkdə idi. Doktor Faust da məhz dünyanın bütün sirlərinə agah olmaq və bununla dünyaya hökm etmək istədiyi üçün şeytanın tələsinə düşür və cənnətdən qovulur.

XIX əsr İngilis romantizminin banisi Bayronun "Qabil" misteriyasında da Qabillə şeytan arasında gedən diaoloqda Tövratdakı kanonik mətndəki eyni motivlə qarşılaşırıq. Burada Qabil dünyanın sirlərinə bələd olmaq üçün şeytanın arxasınca getmək niyyətinə düşür. Yaxud hər iki əsərdə qəhrəmanlar Allaha asi çıxmaqla şeytanın əsirinə çevrilərək, ruhunu şeytana təslim etmiş olurlar. Faust "İncil"də günahkarın ölümə məhkum olduğunu bilir və düşünür ki, insan, onsuz da, ölümə məhkum olunmuşdur. Eyni hadisəni "Qabil" misteriyasında da müşahidə etməkdəyik. Əsərin qəhrəmanı Allahın insanı ölümlə cəzalandırmasını və onu əbədi həyatdan məhrum etməsini heç cür qəbul etmək istəmir. Bayronun "Qabil" misteriyası ilə "Doktor Faustun faciəsi"ndə oxşar məqamlardan biri də Allaha asi çıxan qəhrəmanların xeyirxah mələklə şər ruh arasında dilemmada qalması motivi öz əksini tapmışdır. Hər iki əsərdə xeyirxah mələklər qəhrəmanın bu yoldan dönməsi üçün ona kömək etməyə, yol göstərməyə çalışır. Lakin qəhrəmanlar xeyirxah mələkləri deyil, zülmət hökmdarını seçirlər. "Doktor Faustun faciəsi" əsərində diqqət çəkən məqamlardan biri də, cəhənnəmin təsviri ilə bağlıdır. Əsərdə deyilir:

Avropa ədəbiyyatında cəhənnəm səhnəsinin təsvirini Dantenin "İlahi komediya" əsərində də müşahidə etməkdəyik. "İlahi komediyanın" "Cəhənnəm" bölümündə cəhənnəm belə təsvir olunur: "Cəhənnəm dibinə endikcə daralan bir çuxurdur. Bu çuxur iç-içə doqquz dairədən ibarətdir. Dairələrin hər birində ayrı bir günah işləyən cəzalandırılmışdır. Aşağıya endikcə cəza ağırlaşır. Cəzanı verən Tanrı deyil. İnsanlar Arafa, Cənnətə gedə biləcəkləri halda yaşadıqları günahlar üznüdən cəhənnəmə getmişlər. Qarşılaşdıqları cəzanı dünyada yaşadıqları həyatda özləri təyin etmişlər. Onların işlədikləri günahlar cəzalarına müqabil təyin edilir. Cəhənnəmə Hz. İsanın yaşadığı müqəddəs Qüds şəhərinin altında rast gəlinir. Cəhənnəmin girişində yaxşılıq və pislik etməmiş insanlara rast gəlinir. Cəhənnəmin ilk axar suyu Akheron da buradadır. Daha sonra cəhənnəmin ilk dairəsi Limbus gəlir. Limbusdakı ruhlar düzgün həyat sürmüş, amma çoxu isavilikdən öncə yaşadığı üçün dindən uzaq qalmış ölən ruhlardır. Daha sonra isə əsl cəhənnəm deyilən yer başlayır. İkinci dairədə şəhvət düşgünləri, üçüncü dairədə əxlaqsızlar, dördüncü dairədə xəsislər, israfçılar, beşinci dairədə qəzəblilər cəzalandırılır. Beşinci dairə ilə altıncı dairəni bir birindən içində ağır günahlar işləmiş əbədiyyətə qədər odun yandığı Dite şəhəri ayırır. Bu hüdudda Allaha asi çıxanlar oğrular, riyakarlar və s. yer alır" [5, 14].

İblis-İnsan paralelini biz Miltonun və Bayronun yaradıcılığında bir daha müşahidə etmiş olduq. Miltonun "İtirilmiş cənnət" əsərində üsyankar mələklərin İblisin təhriki ilə Allaha qarşı

çıxmalarından və onların cənnətdən qovulmasından bəhs olunur. İblis yanar göl ətrafında öz ordusunu toplayır. Onun sarayı pandemoniume sərkərdələrin məşvərəti keçirilir. İblis göyü fəth etmək üçün əsgərlərinə göstəriş verir. İblis Cənnətə daxil olaraq Allahın yaratdığı Adəm və Həvvanı məhv etməyə qərar verir. Quşa çevrilərək həyat ağacında oturan İblis öyrənir ki, insanlara bilik ağacından meyvə yemək qadağan olunmuşdur. O da insanı yoldan çıxararaq bu meyvəni yeməsi üçün sirniklendirir. İsrafilin insanları İblisin bu hiyləsindən xəbərdar etməsinə baxmayaraq onlar nəfslərinə yenilib ölümlü olurlar. Həvva qadağanı pozur və meyvəni dadır. Ardınca Adəm meyvəni dadır. Onlar bu səhvlərinin cəzasını çəkməlidirlər-cənnətdən qovulmalıdırlar. Milton Adəm və Həvva obrazında ideal kişi və qadını canlandırmağa çalışmışdır. [6, 102] Matuşevski "Poeziyada İblis" əsərində Miltonun İblisini mələkləri Allahın iradəsinə qarşı qaldıran varlıq kimi dəyərləndirir. "Milton şərin mənşəyi, insanın qisməti, azad iradəsi məsələsini qoyur və həll etməyə çalışır. Miltona görə şər işləri Allah insanlara göndərmir. Başqa sözlə desək, şər Allahın qisməti deyildir. Bir halda ki, insan azad iradəyə malikdir, deməli öz hərəkətlərinə məsuldur. Məhz bu cəhətdən Milton İblisi məğrur və heç bir qüvvədən asılı olmayan ruh kimi təqdim edir. İblisi cənnətdən qovmaq olar, lakin onu cilovlamaq olmaz" [6, 34] İblis ədəbiyyatda konflikt formalaşdıran obrazlardandır. İctimai-siyasi, sosial faktorlarla əlaqədar olaraq İblisə müraciət etmək tendensiyası bütün dövrlərdə aktual olmuşdur. İblis mifoloji təfəkkürdən gələn simvolik obrazdır və yazılı ədəbiyyata təzahür etmişdir. İstər dini-kanonik mətnlərdə, istər yazılı ədəbiyyatda K.Marlo, C.Bayron, C.Milton kimi ədiblərin yaradıcılıqlarına nəzər saldıqda aydın görünür ki, İblislə bağlı mövzularda İblisin peyda olmasına səbəb insanın nəfsinə yenilməsi və Allaha asi olmaqdır.

İstifadə edilmiş ədəbiyyat

1. Bayron C.Q. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2006, 223 s.
2. Höte İ.V. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2010, 768s.
3. Israfilova A. Corc Hordon Noel Bayron // Filologiya məsələləri, 2017, N:11, 326-331s.
4. Milton C . Seçilmiş əsərləri. Bakı:Şərq-Qərb, 2013, 494s.
5. Dante, İlahi komediya, Cehennem, Ankara, Nilüfür yayıncılık, 2018
6. Алексеев М.П. Из истории Английской литературы. М.Л. Художественная литература, 1960, 497 с.
7. Дьяконов И.М. Архаические мифы Востока и Запада. М., Наука, 1990, 247 с.
8. Марло К. Легенда о докторе Фаусте. Серия "Литературные памятники" Перевод Н. Н. Амосовой. М., "Наука", 1978, OCR Бычков М.Н.
9. Byron G. G. Cain. Philadelphia: Liberal Union, 1836, 64p.
10. https://foma.ru/kto-takoy-lyutsifer.html

Ф. Ахмедзаде

Проявление образа дьявола в «Трагедии доктора Фауста» Кристофера Марло

Резюме

Как и в культуре, так и в литературе образ дьявола выступает как персонификация любого зла. Он является одним из персонажей в литературе, который создаёт конфликт. Образ дьявола, возникший как выражение мифологического мышления, выступал в качестве одной из художественных символических фигур, использовавшихся как в восточной, так и в западной литературе с древних времен. Хотя история этого обращения была приурочена к более древнему периоду в восточной литературе, в европейской литературе эта ситуация имеет более четкую картину, особенно, в литературе эпохи Возрождения. Одной из основных причин этого был интерес, проявленный литературой эпохи Возрождения к античному периоду. Кристофер Марло был одним из самых известных представителей английской драматургии в эпоху Возрождения. Одна из самых интересных трагедий в

работах Марло - «Трагедия доктора Фауста». В отличие от тем, которые он затрагивал на протяжении всей своей творческой работы, эта книга привлекает внимание более философским психологическим характером. Кроме того, в статье уделяется внимание некоторым аллегорическим образам. Мотив «доктора Фауста продать свою душу дьяволу» не является совпадением для европейской литературы и отражен во многих литературных произведениях, которые мотивируют человека продать душу дьяволу. Поскольку доктор Фауст хочет знать все тайны мира и, таким образом, хочет править миром, он попадает в ловушку сатаны и изгоняется с небес. Одним из ключевых моментов в произведении «Трагедия доктора Фауста» является описание ада. В статье анализируются такие произведения, как «Божественная комедия» А. Данте, «Потерянный рай» Дж. Милтона, «Доктор Фауст» И. В. Гёте, «Каин» Дж. Г. Байрона, а также тексты Торы. Дьявол является символическим образом из мифологического мышления и, позднее, был отнесён к письменной литературе. Фауст К. Марло является новой формой выражения параллели человек-дьявол, и этот образ выражен в соответствии с идеями гуманизма.

Ключевые слова: Дьявол, зло, Фауст, Мефистофель, Люцифер

Fatimakhanim Ahmadzada

The manifestation of the image of the devil in the "Tragedy of Dr. Faust" by Christopher Marlowe

Summary

Both in culture and in literature, the image of the devil acts as the personification of any evil. He is one of the characters in literature who creates conflict. The image of the devil, which emerged as an expression of mythological thinking, acted as one of the artistic symbolic figures used in both Eastern and Western literature since ancient times. Although the history of this appeal was confined to a more ancient period in Eastern literature, in European literature this situation has a clearer picture, especially in Renaissance literature. One of the main reasons for this was the interest shown by the literature of the Renaissance to the ancient period. Christopher Marlowe was one of the most famous representatives of English drama in the Renaissance. One of the most interesting tragedies in Marlowe's works is “The Tragedy of Dr. Faust”. Unlike those he touched on throughout his creative work, this book attracts attention with a more philosophical psychological character. In addition, the article focuses on some allegorical characters. The motif of “Dr. Faust to sell his soul to the devil” is not a coincidence for European literature and is reflected in many literary works that motivate a person to sell his soul to the devil. Since Dr. Faust wants to know all the secrets of the world and thus wants to rule the world, he falls into the trap of Satan and is expelled from heaven. One of the key points in the work “The Tragedy of Dr. Faust” is the description of hell. The article analyzes such works as The Divine Comedy by A. Dante, The Lost Paradise by J. Milton, Dr. Faust by I. V. Goethe, Cain by G. G. Byron, and also the Torah texts. The devil is a symbolic image from mythological thinking and, later, was assigned to written literature. C. Marlowe’s Faustus is a new form of expression man-devil parallel and this image is expressed in accordance with the ideas of humanism

Key words: Devil, evil, Faustus, Mephistopheles, Lucifer

Redaksiyaya daxil olma tarixi: 12.04.2019
Çapa qəbul olunma tarixi: 17.05.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent **Fərəh Cəlil** tərəfindən çapa tövsiyə olunmuşdur.